# MUSİQİ VƏ ONUN TƏDRİSİ TEXNOLOGİYASI KAFEDRASI

1964-cü ildə ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsində tədris olunan musiqi və rəsm fənləri əsasında Musiqi və rəsm şöbəsi yaradıldı. Həmin şöbəyə ayrı-ayrı illərdə dosent Bəhlul Axundov (1964-1966) və dosent Paşa Hacıyev (1966-1973) rəhbərlik etmişdilər. O dövrdə “İbtidai təhsilin metodikası və pedaqogikası” və “Məktəbəqədər tərbiyə” ixtisasları üzrə əyani, axşam və qiyabi şöbələrdə təhsil alan tələbələrə “Musiqi və onun tədrisi metodikası” fənni tədris edilirdi. Həmin illərdə kafedrada Şəfiqə Axundova, Priva Pinson, Adilə Qafarova, Sabir Quliyev, Nəcməddin Məlikməmmədov, Akif Eyvazov, Elmira Əfəndiyeva və Pərvaz Babayeva kimi görkəmli mütəxəssislər çalışmışlar.

1973-cü ildə Musiqi və rəsm şöbəsinin bazasında iki müstəqil kafedra - Təsviri incəsənət, Musiqi və onun tədrisi metodikası kafedraları təşkil edildi. Pedaqoji fakültənin nəzdində fəaliyyət göstərən Musiqi və onun tədrisi metodikası kafedrasına 1973-2001-ci illərdə professor Sabir Quliyev rəhbərlik etmişdir. Azərbaycanda ali təhsilli musiqi müəllimlərinin hazırlanmasında onun müstəsna xidmətləri olmuşdur. Məhz onun təşəbbüsü və səyi nəticəsində Pedaqoji fakültənin nəzdində orta məktəblər üçün musiqi müəllimi hazırlığına başlanılmışdı. Əsası professor Sabir Quliyev tərəfindən qoyulmuş Musiqi və onun tədrisi texnologiyası kafedrasına 2017-ci ildən rəhbərlik edən professor Zemfira Abdullayeva onun əvəzolunmaz xidmətlərini bu cür dəyərləndirir:

“Professor Sabir Quliyev Azərbaycan məktəbi tarixində ilk dəfə olaraq III, IV, V, VI siniflər üçün bəstəkar Süleyman Ələsgərovla birlikdə musiqi dərsliklərini, eləcə də musiqi proqramlarını, bir sıra tədris vasitələrini hazırlayıb nəşr etdirmişdir.

Professor S.Quliyev musiqi müəllimləri hazırlayan ali pedaqoji institutların tələbələri üçün musiqi proqramlarının və bir sıra metodik vəsaitlərin müəllifi kimi tanınmışdır. Onun təşəbbüsü və rəhbərliyi ilə Moskvada “Melodiya” firması tərəfindən istehsal olunan tədris-qrammofon valları, habelə “Mahnı oxumaq üçün qrammofon vallarından istifadə” adlı tədris vəsaiti musiqi fənninin tədrisinə böyük fayda vermişdir.

Professor S.Quliyevin fəaliyyət dairəsi çox geniş idi. O, on ildən artıq bir müddətdə respublika televiziyasında və radiosunda musiqi tədrisi, musiqi tərbiyəsi, musiqi folkloru, musiqi sənətinin inkişafı problemləri üzrə maraqlı verilişlər aparmışdır. Professor S.Quliyevin elmi-pedaqoji kadrlar hazırlanması sahəsində də böyük xidmətləri olmuşdur. Vaxtilə bir nəfər elmi dərəcəsi olmayan Musiqi alətləri kafedrasında yeddi nəfər namizədlik dissertasiyasını müdafiə etmişdir. O bütün həyatı boyu elmi-tədqiqat işi ilə məşğul olmuşdur. Pedaqogika üzrə elmlər doktoru, professor Sabir Dadaş oğlu

Quliyev öyrənilməyə layiq irs qoyub gedib. Onu musiqi tədrisinin və təhsilinin fədakar tədqiqatçısı, ustad pedaqoq-alim adlandırmaq olar".

Musiqi və onun tədrisi metodikası kafedrasında musiqi tarixi və nəzəriyyəsi, solfecio, harmoniya, polifoniya, əsas musiqi aləti, xor, xorşünaslıq, dirijorluq, vokal, alətşünaslıq, əlavə musiqi aləti, məktəb mahnı repertuarı, musiqi əsərlərinin təhlili və digər fənlər tədris edilirdi. Həmin dövrdə kafedrada Gülarə Axundova, Yusif Həbibov, Müsəvvər Əsgərov, Gülarə Aslanova, Dilarə Əliyeva, Gülgün Novruzova, Gülarə Əsgərniyə, Nərgiz Cəfərova, Nelli Abutidze, Zemfira Abdullayeva, Töfhə Sadıqova və başqaları çalışmış, həmçinin Hacı Xanməmmədov, Adil Bəbirov, Faiq Sücəddinov, Yaşar Səfərov, Ağaverdi Paşayev, Ədalət Vəzirov, Fəxrəddin Dadaşov kimi tanınmış musiqiçilər dərs demişlər.

Pedaqoji fakültənin musiqi bölməsində tələbələrin sayının ildən-ilə artması tədris yükünün ağırlaşması ilə nəticələnmiş, bu isə öz növbəsində yeni kafedranın yaranmasını zəruri etmişdi. 1982-ci ildə Musiqi və onun tədrisi metodikası kafedrasının bazasında iki müstəqil kafedra – Musiqi alətləri, Musiqi fənləri və onun tədrisi metodikası kafedraları təşkil olunmuşdu. Musiqi alətləri kafedrasına 1982-2001-ci illərdə prof. Sabir Quliyev, 2001-2017-ci illərdə prof. Minarə Dadaşova, Musiqi fənləri və onun tədrisi metodikası kafedrasına isə 1982-1998-ci illərdə dos. Nəcməddin Məlikməmmədov, 1998-2017-ci illərdə prof. Jalə Qədimova rəhbərlik etmişlər.

Uzun illər Musiqi və onun tədrisi metodikası kafedrasının müdiri vəzifəsini icra etmiş dos. Nəcməddin Məlikməmmədovla birgə çalışan Filologiya fakültəsinin dekan müavini, dos. Pəri Paşayeva onunla bağlı xatirələrini bu cür ifadə edir:

"Tanrı Nəcməddin müəllimə insanlığa xas olan ağıl, mənlik, təvazökarlıq, səbr, işgüzarlıq, sənətə sevgi hissi və nurlu sima vermişdi. Nəcməddin müəllim olduqca səmimi bir insan idi. Onun sözü ilə əməli bir idi. Dediyi sözün, verdiyi vədin sahibi idi və sonadək sözünün üstündə durmağı bacarırdı.

Nəcməddin müəllim uzun illər Musiqi fənləri və onun tədrisi metodikası kafedrasına rəhbərlik etmişdi. O, kafedranın hər bir əməkdaşına qayğı ilə yanaşıb, qeydinə qalıb, problemi ilə maraqlanıb və onlara lazımi dəstəyini vermişdir. O, sözün həqiqi mənasında işləməyi və işlətməyi bacaran bir insan idi.

Alim ömrü çox dəyərli və dəyərli olduğu qədər də şərəflidir. Nəcməddin müəllim alim adını şərəflə daşıyanlardandır. Onun məhsuldar elmi-pedaqoji fəaliyyəti gənc nəslə bir örnək idi".

1993-1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində "Musiqi sənəti" ixtisası üzrə fəaliyyət göstərən Müdafiə Şurasının sədri olmuş prof. S.Quliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə kafedranın bir çox əməkdaşları dissertasiya işləri yerinə yetirmiş və alimlik dərəcələri almışlar.

2015-ci ildə ADPU-nun Elmi Şurasının qərarı ilə Musiqi və təsviri incəsənət, 2016-cı ildə Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsi təşkil olunmuşdur. 2017-ci ildə Musiqi alətləri, Musiqi fənləri və onun tədrisi metodikası kafedralarının bazasında yeni kafedra - Musiqi və onun tədrisi metodikası kafedrası təşkil olunmuş və prof. Zemfira Abdullayeva həmin kafedranın müdiri vəzifəsinə seçilmişdir. 2019-cu ildə kafedranın adında dəyişiklik edilərək "Musiqi və onun tədrisi texnologiyası" adlandırılmışdır.

Kafedra əməkdaşlarından prof. Zemfira Abdullayeva, dos. Elmira Əfəndiyeva "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, professorlar Jalə Qədimova, Minarə Dadaşova, dos. Laçın Həsənova "Tərəqqi" medalı ilə təltif olunmuşlar. Prof. Zemfira Abdullayeva, dos. Elmira Əfəndiyeva, Afət Həsənova, Laçın Həsənova Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, Təhsil Nazirliyinin fəxri fərmanı ilə, professorlar Minarə Dadaşova və Jalə Qədimova Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişlər. Mərhum sənətkar, əməkdar incəsənət xadimi Nailə Mirməmmədli uzun müddət bu kafedrada səmərəli fəaliyyət göstərmişdir.